## 2023 – “Heydər Əliyev İli”

# “Heydər Əliyev siyasətinə inam...”

## *Azərbaycan gəncliyinin mübarizə əzmi bu siyasətdən qaynaqlanır*



*Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.*

***Ali Sovetin Sədri, Prezidentin səlahiyyətlərini icra edən Heydər Əliyevin ölkə gənclərinin nümayəndələri ilə görüşdəki çıxışından***

**22 sentyabr 1993-cü il**

*Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik... İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi.*

***Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdəki çıxışından***

**Bakı, 9 yanvar 2023-cü il**

**Gənc vətənpərvərlərimizin, xüsusən, ekoloq və könüllülərin Xankəndi – Laçın yolunun Şuşa ərazisindən keçən hissəsində ay yarımdır davam edən etiraz aksiyası barədə çox yazılıb. Mən də bu barədə öz fikirlərimi qələmə almaq istəyirdim. Həm də bu məsələni düşmən əsarətindəki torpaqlarımızı yağı tapdağından azad etmiş Azərbaycan gəncliyinin növbəti qətiyyəti kimi vermək istəyirdim. Ancaq Azərbaycan Dəmir Yolunun Xırdalan sərnişin stansiyasında bir qrup gənclə tamamilə təsadüfən yaranan ünsiyyətdən sonra bu fikrimi bir qədər dəyişməli oldum.**

Qarmaqarışıq fikirlərlə və uca səslə danışan bu gənclərin əsas mövzusu məlum etiraz aksiyası idi. Hərəsi bir fikir səsləndirir və özünün daha doğru söylədiyini sübut etməyə çalışırdı. Mənim onların söhbətinə qarışacağımı gözləməsələr də, müdaxilə etdim: – Sizcə, həmin gəncləri bu qarlı-çovğunlu günlərdə gecə-gündüz orada dayanmağa sövq edən nədir?

“Sərvət də, torpaq da bizimdir, biz qorumalıyıq”, – deyən də oldu, “Məgər oraya yaşlı adamlar getməlidirmi?” – sualını verən də. “Otuz il düşmənin gözümüzün qabağında təbii sərvətlərimizi daşıyıb aparmasına dözmüşük, daha dözməməliyik” – fikrini bildirən də oldu, “O gəncləri oraya aparan Heydər Əliyev siyasətinə olan inam, İlham Əliyevin fəaliyyətinə göstərilən dəstəkdir!” – deyən də. Elə buradaca dayandım. “Heydər Əliyev siyasətinə inam...” Beləcə, yazının konkret istiqaməti məlum oldu.

... Hamı, təkcə o gənclər yox, hətta, orta məktəb şagirdləri də yaxşı bilirlər ki, ulu öndərimiz ölkə gəncliyinin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması üçün lazım olan bütün addımları atmışdır. Ümummilli liderimizin fikrincə, cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Xalqın gələcəyini düşünən bütün liderlər gənclərə qayğı göstərirlər.

Təsadüfi deyil ki, Heydər Əliyev həm ölkəmizə birinci dəfə rəhbərlik edəndə, həm də dövlət müstəqilliyimizin bərpasından sonra hakimiyyətdə olduğu illərdə gənclərlə iş siyasətini gündəlik fəaliyyətinin mühüm məsələlərindən birinə çevirmişdi. Onun fikrincə, ölkə gəncliyi müstəqil Azərbaycan dövlətinin inkişaf etdirilməsində mühüm rol oynaya bilərdi. Belə də oldu. O, gənclərə etimad göstərdi, gənclər də ona. Müxtəlif dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakı təmin edildi.

Onu da deyək ki, ulu öndərin bu məsələdə xüsusi təcrübəsi var idi. Belə ki, Heydər Əliyevin 1969–1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocağı, gənclik mərkəzi, hərbi məktəb açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Məhz onun təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində, bütövlükdə, 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi yetişməsinə imkan və şərait yaradılmışdı.

Ancaq çox təəssüf ki, 1988-ci ildən 1993-cü ilə qədər ölkə gəncliyi ictimai-siyasi proseslərdən kənarda qalmış, onun potensialı lazımınca qiymətləndirilməmişdi. Lakin Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu vəziyyət kökündən dəyişdi. Heç kəs unutmayıb ki, belə bir məqamda hakimiyyətə qayıdan ümummilli liderimiz ilk görüşünü məhz gənclərlə keçirmişdi. Belə ki, ulu öndər 1993-cü il sentyabrın 22-də Ali Sovetdə gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inamını ifadə etmişdi.

Sonradan dəfələrlə, müxtəlif müəlliflərin yazılarında oxuduq ki, torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə başlayan Azərbaycan Ordusunun Horadiz əməliyyatındakı tarixi qələbəsinin təməli, məhz ulu öndərin gənclərlə görüşündə qoyulmuşdu. Elə bugünkü qələbələrimizin təməli də məhz həmin günlərdə qoyulmuşdu. Danılmaz faktdır ki, ulu öndərin gənclər siyasəti onun layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Prezident İlham Əliyevin gənclər siyasətinin nəticəsidir ki, bizim ordumuz on illər boyu səsləndirdiyimiz xəbərdarlıqlardan sonra – 2016-cı ilin Aprel döyüşlərində düşmənin burnunu ovmuşdu. Sonra nələr oldusa, biz də unutmayacağıq, düşmən də. İşğalçıların kapitulyasiya sənədinə imza atması da (indi artıq həmin ifadəni Ermənistan ictimaiyyəti bizdən çox işlədir) göz qabağındadır, Bakıdakı “Qənimətlər parkı” da, Füzuli və Zəngilan Beynəlxalq hava limanları da, Zəfər yolu da, Şuşada keçirilən mühüm beynəlxalq tədbirlər də. Üstəlik, 2022-ci ildə Laçın şəhərinin mərkəzinin, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsini də bu sıraya yazmalıyıq.

Ancaq Heydər Əliyev siyasi kursuna inam və etimadı gündən-günə artan Azərbaycan gəncliyinin son ayyarımda ortaya qoyduğu qətiyyət, nümayiş etdirdiyi prinsipiallıq heç də hərbi əməliyyatlarımızdan az əks-səda yaratmır. Gəncliyimizin bu addımlarının səsi artıq dünyanın ən ali tribunalarından gəlir. İndi artıq Xankəndi – Laçın yolunda davam edən etiraz aksiyaları barədə danışmayan anti-türk, anti-Azərbaycan təfəkkürlü heç kəs qalmayıb. Sən demə, gənclərin gücü ən müasir silahlardan biri imiş.

Fikrimizcə, həmin aksiyalardakı gənclər haqqında hamı danışsa da, ən mükəmməl fikirləri Prezident İlham Əliyev işlətmişdir. Dövlət başçımız bu il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə demişdi ki, ilk növbədə, o gənclərə “eşq olsun!” demək istəyirəm, onlar bizim fəxrimizdir: “Onlar gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər. Bunun, necə deyərlər, bir addımlığında separatçılar dünyaya tamamilə yalan informasiya ötürməklə məşğuldurlar. Birincisi, hər kəs bunu artıq gördü ki, orada blokadadan söhbət gedə bilməz. Sülhməramlıların dörd yüzə yaxın yük avtomobili, – bu, hələ bir ay olmayıb, – oradan keçib”.

Dövlət başçımızın həmin müsahibəsində ermənilərin və onların havadarlarının eşitməli olduğu başqa bir məqam da var idi: “Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. Azərbaycan vətəndaşları kimi, onların hüquqları da, onların təhlükəsizliyi də təmin olunacaq”.

Yaşamaq istəməyənlər isə... özləri bilərlər.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**

